# Rəsul Həmzətovun 100 illik yubileyinə həsr olunmuş kitabın təqdimatı

**Sentyabrın 7-də Bakıda tanınmış avar şairi, yazıçısı, publisist, siyasi xadim Rəsul Həmzətovun anadan olmasının 100-cü ildönümünə həsr olunmuş, tanınmış publisist-politoloq Reyhan Mirzəzadənin "Milyonların nəğməkarı - Rəsul Həmzətov" kitabının təqdimatı keçirilib.**

Təqdimatda dövlət rəsmiləri, diplomatik korpusun nümayəndələri, şair və yazıçılar, mədəniyyət və elm xadimləri, ədəbiyyatsevər ziyalılar, ictimaiyyət və KİV nümayəndələri iştirak edib. Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin birinci katibi, Xalq yazıçısı Çingiz Abdullayev, Xalq şairi Vahid Əziz, yazıçı-publisist, kitabın ön sözünün müəllifi Zöhrə Əsgərova, professor Qulu Məhərrəmli, tarixçi-politoloq, Azərbaycandakı Dağ Yəhudiləri İcmasının sədri Milix Yevdayev, Rəsul Həmzətovun şair dostu, çoxsaylı əsərlərini Azərbaycan dilinə tərcümə edən Tofiq Bayramın bacısı, politoloq-jurnalist Svetlana Bayramova, Rəsul Həmzətovun yaxın dostu Nəbi Xəzrinin oğlu Arzu Babayev, yazıçı, Prezident təqaüdçüsü Zöhrə Məhəmmədova, kitabın müəllifi, publisist-politoloq Reyhan Mirzəzadə və başqaları çıxış ediblər. Onlar şair haqqında öz xoş xatirələrini danışıb, Rəsul Həmzətovun insani keyfiyyətlərindən söz açıblar. Çingiz Abdullayev avar şairi ilə olan xoş xatirələrini iştirakçılarla bölüşüb: "O, Nəbi Xəzri ilə, Səməd Vurğun ilə çox yaxın dost olub.  Hər səfər Moskvaya gedəndə Rəsul Həmzətovla görüşəndə çox şad olurdum ki, mən belə bir insanla ünsiyyətdə oluram. O, çox maraqlı, müdrik insan idi. Rəsul Həmzətov danışanda dili əfsanəyə çevirirdi".

Tədbirdə Rəsul Həmzətovun həyat və yaradıcılığına həsr olunmuş film və videoçarx nümayiş olundu. Rəsul Həmzətovu yaxından tanıyan, onun pərəstişkarı olan insanlar xatirələrini bölüşüb şeirlərini səsləndirdilər. Xüsusi qeyd etməliyik ki, tədbirdə kiçik şagirdlərimiz də iştirak edib. Onlar Rəsul Həmzətovun şeirlərini səsləndirərək iştirakçıları məmnun ediblər.

Dağıstanın Xalq şairi Rəsul Həmzətovun anadan olmasının 100 illiyi ilə əlaqədar dünyanın bir çox ölkələrində silsilə tədbirlər keçirilir. Şairin yaşadığı Rusiya Federasiyasında 2023-cü il "Rəsul Həmzətov ili" elan olunub.

Tədbirin sonunda kitabın müəllifi Reyhan Mirzəzadə çıxış edərək Rəsul Həmzətovla bağlı yazmaqdan qürur duyduğunu bildirib.

Qeyd edək ki, kitabda avarəsilli şairin dostlarının, onu tanıyan yaxınlarının fikirləri yer alıb. Kitabın ilk bölməsində müəllif şairin ölməz misralarını oxucuların diqqətinə çatdırıb. "Dağlar ölkəsi" və "Çoxdilli" adı ilə şöhrət tapmış bu gözəl diyarın adət-ənənələri, Dağıstan xalqları arasında yayılmış maraqlı əfsanə barədə məlumat verilib. Kitabın ikinci və dördüncü bölmələrində Vilayət Rüstəmzadənin tərcüməsində Rəsul Həmzətovun "Mənim Dağıstanım", "Dağıstanın üç sərvəti" və "Ata və Ana. Od və Su" adlı parçalar təqdim olunub. Son bölmədə Rəsul Həmzətovun unudulmaz şeirləri Əhməd Cəmilin və Tofiq Bayramın tərcüməsində oxuculara çatdırılıb.

Kitabda, həmçinin musiqisi Qulu Əsgərova aid "Əziz dostum" şeiri də yer alır.

Rəsul Həmzətovun sözləri də diqqət çəkir: "Mən bir avar şairiyəm. Lakin qəlbən özümü təkcə Avarıstan, Dağıstan, öz ölkəmiz üçün yox, həm də bütün Yer kürəsi üçün cavabdeh sayıram. Mənim xalqımı Azərbaycanla bağlayan tellər çoxdur - tarix, mədəniyyət, ənənələr və məişət. Biz hamımız bir kökdən qaynaqlanmışıq. Hələ gənclik illərində mən Azərbaycana sevgi hissləri ilə dolu şeirlər yazmışam. İlk dəfə məni Azərbaycanla Nizami, Füzuli, Nəsimi, Vaqif, Sabir tanış edibdir. Sonra bu torpağın istedadlı oğlu Səməd Vurğunla olan qardaşlıq münasibətimiz həmin tanışlığı daha da inkişaf etdirib, möhkəmləndirib. Məni bu torpağa sıx bağlayan Azərbaycan xalqının böyük poeziyası, onun qoynunda boya-başa çatmış şair oğullarının, musiqiçilərinin böyük dühasıdır. İndiyədək dünyanın bir sıra ölkələrində, ən gözəl şəhərlərdə qonaq olmuşam. Etiraf edim ki, bu şəhərlər arasında öz gözəlliyi ilə diqqətimi cəlb edib mənə ən çox şeir yazdıran məhz Bakı olub. Var olsun belə torpaq! Bizim yaradıcılıq əlaqələrimiz möhkəm dostluq hissləri ilə zəngin və müxtəlif planlıdır. Dağıstanda Səməd Vurğuna rəğbət bəsləyiblər. Süleyman Rüstəm, Rəsul Rza, Nəbi Xəzri, eləcə də Azərbaycanın başqa şair və nasirlərinin əsərləri ilə tanışdırlar".

Daha kiçik yaşlarında publisistikaya maraq salan şair o dövrü atı yəhərləyə, anasının tikdiyi çərkəzi üstündə kəmər qurşaya bilməyən bir uşaq kimi təsəvvür edir:

*Bir gecə qəlbimdə naməlum bir hiss,*
*Oyanıb, yerimdən qalxdım qəflətən.*
*Sükuta dalmışkən doğma evimiz*
*On iki hecalı bir beyt dedim mən.*

**Töhfə SƏMƏDOVA.**
**"Respublika".**

Respublika .- 2023.- 8 sentyabr.- S.7.